**İstehlaka yararsız iribuynuzlu heyvan ətinin aşkarlanmasına dair məlumat**

**(15 may 2023)**

Daxil olan məlumat əsasında, Agentlik müfəttişləri tərəfindən Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birgə Gəncə şəhər ərazisində keçirilmiş reyd zamanı Allaverdiyev Keyti Məhəmmədəli oğluna məxsus “Chevrolet Niva” markalı 32-BH-549 dövlət qeydiyyat nişanlı avtomobilin yük yerində baytarlıq-sanitariya ekspertizasından keçirilməyən, kəskin qoxuya malik 1 baş (93 kq) ölmüş iribuynuzlu heyvan cəmdəyi aşkarlanıb. İlkin araşdırmalar nəticəsində istehlaka yarasız ət məhsulunun satış məqsədilə Daşkəsən rayonundan gətirildiyi məlum olub. Faktla bağlı qanunvericiliyə uyğun müvafiq tədbirlər görülüb.